

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 172(23.814)

18 sentyabr 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş

Sentyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Ali Məclisin Sədri nümayəndə heyətini salamlamış, Naxçıvanın Türk dünyasının mərkəzində yerləşdiyini və mühüm əhəmiyyətə malik olduğunu vurğulamışdır. Ölkələrimiz arasındakı qardaşlıq və strateji tərəfdaşlıq münasibətlərindən danışan Ali Məclisin Sədri Mustafa Kamal Atatürkün "***Azərbaycanın kədəri bizim kədərimiz, sevinci bizim sevincimizdir***" və ümummilli liderimiz Heydər Əliyevin "***Azərbaycan-Türkiyə bir millət, iki dövlətdir***" kəlamlarının Azərbaycan-Türkiyə münasibətlərinin mahiyyətini ifadə etdiyini bildirmiş və İkinci Qarabağ müharibəsində Türkiyənin göstərdiyi siyasi dəstəyə diqqəti çəkmişdir.



Azərbaycan-Türkiyə əlaqələrinin türk cümhuriyyətlərinin birliyinə xidmət etdiyini bildirən Ali Məclisin Sədri Türkiyə Böyük Millət Məclisində Azərbaycanla bağlı müzakirə olunan bütün məsələlərin yekdilliklə qəbul edilməsinə görə nümayəndə heyətinə təşəkkür etmişdir.

Səmimi qəbula görə minnətdarlıq edən Şamil Ayrım nümayəndə heyətinin Naxçıvan Muxtar Respublikasına səfərinin önəmini vurğulamış və 44 günlük Vətən müharibəsindən sonra Naxçıvanda olmaqdan məmnunluğunu bildirmişdir. İkinci Qarabağ müharibəsində qazanılan tarixi Qələbə münasibətilə təbrikləri çatdıran qonaq ölkələrimiz arasındakı ikitərəfli münasibətləri diqqətə çatdırmış, Naxçıvan Muxtar Respublikası ilə əlaqələrin bu baxımdan əhəmiyyətini qeyd etmişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım: "Davamlı səfərlərimizlə birliyimizi daha da möhkəmləndirəcəyik"



*Sentyabrın 17-də Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə şəhərimizin mərkəzində ulu öndər Heydər Əliyevin əzəmətlə ucalan abidəsi qarşısına gül dəstələri qoyub, ümummilli liderin xatirəsinə ehtiramlarını bildiriblər.*

Daha sonra Heydər Əliyev muzeyinə baxış olub, dahi liderin mənalı həyat yolu barədə qonaqlara ətraflı məlumat verilib.

Vurğulanıb ki, ümummilli lider hakimiyyətdə olduğu illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, Azərbaycançılıq məfkurəsi dirçəldilməyə başladı. Hakimiyyətinin hər iki dövründə ölkənin gələcək taleyi üçün böyük amallara hesablanmış addımların atılması dahi liderin uzaqgörənliyinin, fədakarlığının bariz nümunəsi idi. Bu taleyüklü və qətiyyətli addımların əsasında Azərbaycan Respublikası bu gün özünün ən qüdrətli dövrünü yaşamaqdadır.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə tarixi xilaskarlıq missiyasını yerinə yetirib və qeyri-adi uzaqgörənliyi, dövrün çağırışlarına adekvat və tutarlı cavab vermək, bu xüsusda düzgün qərarlar qəbul edib qətiyyətlə həyata keçirmək kimi idarəçilik istedadı və ustalığı ilə xalqımızın taleyində həlledici rol oynayıb, Azərbaycanı tənəzzüldən, dürğunluqdan, xaosdan çıxararaq inkişafa, tərəqqiyə doğru aparıb.

Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım "Şərq qapısı" qəzetinə müsahibəsində deyib: "Bu bizim qardaş Azərbaycana, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvana 44 günlük müharibə nəticəsində qazanılan zəfərdən sonra etdiyimiz ilk səfərimizdir. Bilirik ki, II Qarabağ müharibəsində torpaqların düşmən işğalından azad olunmasında naxçıvanlı qəhrəmanların rolu çox böyük olmuşdur. Bu yolda canını fəda edən bütün şəhidlərimizə Allahdan rəhmət diləyirik.

Diqqətə çatdırmaq istəyirəm ki, Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri tarixən sabit bir müstəvidə inkişaf edərək özünü bütün sahələrdə doğrultmuş və əbədi qardaşlığın əsasını qoymuşdur. Tarixin bütün dövrlərində bu iki dövlət arasındakı səmimi münasibətlərin sayəsində əldə edilən birlik və bərabərlik vahid türkçülük ideyalarının bünövrəsini təşkil etmişdir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın dediyi *"Azərbaycanın gücü bizim gücümüz, bizim gücümüz Azərbaycanın gücüdür"* dəyərli ifadəsi tarixi qardaşlıq və dostluğun ən gözəl qənaətidir.

Azərbaycan xalqının 44 günlük müharibədən sonra əldə etdiyi tarixi zəfər bu iki dövləti bütün sahələrdə bir-birinə daha da doğmalaşdırdı. Bizlər də bir parlament təşkilatı olaraq əlimizdən gəldiyi qədər bütün sahələrdə bu birlik və bərabərlikdə təmsil olunmaq istəyir, bunun üçün çalışırıq. İnanırıq ki, Azərbaycan xalqı necə ki İkinci Qarabağ savaşında xalq-ordu birliyi nümayiş etdirib əbədi zəfər qazandısa, biz 83 milyon türk vətəndaşı da bir mövqedə birləşib daha sıx həmrəylik nümayiş etdirəcəyik. Bundan sonrakı məqsədimiz də davamlı səfərlərimizlə bu birliyi daha da gücləndirmək olacaqdır. İnanırıq ki, hər iki qüdrətli türk dövlətinin apardığı uğurlu siyasət nəticəsində Qafqaz coğrafiyasında qonşuluq və dostluq əlaqələri daha da qüdrətli bir mərhələyə çatacaqdır".

**Məcid RƏŞADƏTOĞLU**

## İnformasiya və rabitə xidmətlərinin əhatə dairəsi genişlənir

*Muxtar respublikada sosial-iqtisadi həyatın bütün sahələrində informasiya-kommunikasiya sistemlərinin təkmilləşdirilməsi və yeni texnologiyaların tətbiqi məqsədilə kompleks tədbirlər həyata keçirilmiş, əhalinin bu xidmətlərdən istifadə imkanları daha da yaxşılaşdırılmışdır.*

Yaşayış məntəqələrində Yeni Nəsil Telekommunikasiya Sistemlərinin istifadəyə verilməsi, istifadəçilərin keyfiyyətli və sürətli internetlə təmin olunması, 4G mobil rabitə operatorunun fəaliyyətinin təşkili davamlı inkişafa müsbət təsir göstərmişdir.

Ötən dövr ərzində dövlət televiziya və radiosunun internet üzərindən yayımlanması, "Universitet" televiziyasının muxtar respublika ərazisində yayıma başlaması, iqtisadiyyatın bütün sahələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi, keyfiyyətli və sərfəli mobil rabitə xidməti üçün "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni binasının istifadəyə verilməsi və maddi-texniki bazasının gücləndirilməsi bu sahədə görülən işlərin əsas tərkib hissəsidir.

Muxtar respublikada elektron hökumətin formalaşdırılması sahəsində də ardıcıl tədbirlər aparılmış, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemlərinin fəaliyyəti təmin edilmiş, "Evədək optika" layihəsi üzrə görülən işlər uğurla həyata keçirilmişdir.

Muxtar respublikanın telekommunikasiya şəbəkəsinin yenilənməsi istiqamətində Naxçıvan şəhərində, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz və Sədərək rayonlarında Yeni Nəsil Telekommunikasiya Sistemləri, Kəngərli rayonunda isə telekommunikasiya sistemi istifadəyə verilmişdir.

Rabitə xidmətlərindən istifadə qismində 1 yanvar 2021-ci il tarixə muxtar respublikada sabit şəbəkə telefonlarının sayı 74 min 591 nömrə olmuşdur ki, bunun da 66 min 130-u mənzillərdə qeydə alınmışdır. 2011-ci ilin sonu ilə müqayisədə sabit şəbəkə telefonlarının sayı 20 faiz artmışdır. Poçt sahəsində də xidmətlərin müasir tələblərə uyğun qurulması üçün əlverişli şərait yaradılmış, 1 iyul 2021-ci il tarixə muxtar respublikada 36-sı şəhər, 163-ü kənd yerlərində olmaqla, ümumilikdə, 199 poçt şöbəsi mövcud olmuşdur.



Əhalinin maddi rifah halının yaxşılaşması və informasiya texnologiyaları sahəsində yaradılmış şəraitin nəticəsində 1 yanvar 2021-ci il tarixə muxtar respublikanın ev təsərrüfatlarında, müəssisə və təşkilatlarda 134 minə yaxın kompüter mövcud olmuşdur ki, bu da 1 yanvar 2011-ci il tarixə olan göstəricidən 57,6 faiz çoxdur.

Muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı bu sahə üzrə göstərilən xidmətlərin dəyərinin dinamik artımına da zəmin yaradıb. Belə ki, informasiya və rabitə xidmətlərinin dəyəri 2021-ci ilin yanvar-avqust aylarında 39 milyon 795 min manata yaxın olmuşdur ki, bu da 2011-ci ilin müvafiq dövründəki göstəricini 48,8 faiz üstələmişdir.

. *Yanvar-avqust ayları üzrə informasiya və rabitə xidmətlərinin dəyəri, min manat*




Cari ilin yanvar-avqust aylarında muxtar respublikada informasiya və rabitə sahəsinin inkişafına 4 milyon 717 min 300 manat vəsait yönəldilmişdir.

Muxtar respublikada əhaliyə keyfiyyətli poçt-rabitə xidmətlərinin göstərilməsi məqsədilə cari ilin ötən dövründə Şərur rayonunun Şəhriyar, Ordubad rayonunun Nüsnüs, Aşağı Əndəmic və Yuxarı Əndəmic kəndlərində rabitə evləri istifadəyə verilmiş, quruculuq işləri aparılan digər kəndlərdə rabitə infrastrukturunun yenilənməsi istiqamətində tədbirlər davam etdirilir.

Sədərək Radio-Televiziya Ötürücü Stansiyasının yeni binası istifadəyə verilmiş, Duzdağ Radio-Televiziya Ötürücü Stansiyası binasının yenidən qurulması davam etdirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 18 dekabr tarixli Sərəncamı ilə muxtar respublikada təhsillə bağlı teleradio proqramlarının hazırlanması və yayımını təmin etmək, eləcə də sistemli maarifçilik işinin aparılması məqsədilə Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmişdir. "Kanal 35" televiziyası və "Naxçıvanın səsi" radiosu təhsillə bağlı televiziya və radio proqramlarını hazırlayan və yayımını həyata keçirən teleradio yayımçısı kimi fəaliyyətini davam etdirir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının inkişafı barədə demişdir: ***"Bu gün muxtar respublikada informasiya-kommunikasiya texnologiyaları sahəsində böyük layihələr həyata keçirilir. Muxtar respublikada bütün telefon stansiyaları avtomatlaşdırılmış, fiber-optik kabellər çəkilmiş, yeni poçt şöbələri yaradılmış və digər tədbirlər həyata keçirilmişdir. Qısa zaman kəsiyində görülən işlər muxtar respublikanın informasiya blokadasından çıxmasına səbəb olmuşdur".***

Muxtar respublikada yeni texnologiyaların tətbiqi sahəsində görülən işlər əhaliyə göstərilən müasir informasiya və rabitə xidmətlərinin səviyyəsinin daha da yüksəldilməsinə yeni imkanlar yaradacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***



İnkişaf edən bölgələrimiz

## Heydərabad adına layiq məğrurluqla dayanıb düşmənin qarşısında

*Qədim Oğuz elində bir yurd var – qeyrətin, igidliyin dastanının yazıldığı bir yurd. Həmin yurd ki adının sahibinin şəninə layiq inkişaf edir, gözəlləşir. Oranın sakinləri düşmənin beşaddımlığında olsa da, bir an belə, qorxu hissi keçirmir. Çünki bilirlər ki, hər bir güllənin cavabı artıqlaması ilə veriləcək. Sədərəyi dövrəyə alan dağlar onların zirvələrində dayanan oğulların sayəsində yarılmaz bir səddir.*

Sədərək rayonunun mərkəzi olan Heydərabad qəsəbəsində illər əvvəl, hələ sovetlər dönəmində dahi rəhbərin istəyi ilə mənzillər inşa edilmiş və sakinlərin burada məskunlaşmasına şərait yaradılmışdır. Uzaqgörən rəhbərin adını daşıyan qəsəbə 90-cı illərin əvvəllərində mənfur düşmənin hücumları zamanı tamamilə dağılmış, amma insanlar öz mətanətini qorumuş və düşmənin hücumlarının qarşısı alınmışdır. Həmin günlərdə insanların bir çoxunun evinə mərmilər düşüb əzizlərini qanına qəltan etsə də, səngərdə döyüşənlərin cəsarətini qıra bilmədi. Həmin günlər ölkəmizin hər kəndindən, şəhərindən oğullar axışdı Sədərəyə, bu torpağı müdafiə etdilər, can qurban verdilər Vətən dediyimiz bir ovuc torpağa. Kimi canından, kimisi sağlamlığından keçdi, amma bir ovuc torpaqdan keçmədik. "Vətəndən pay olmaz", – dedik. Dahi rəhbərin qayıdışı insanlara güc verdi. Ulu öndər Heydər Əliyevin onu canı qədər sevən, ona özü kimi inanan insanların qarşısında: ***"Mən doğma torpağıma, Naxçıvana, Naxçıvan Muxtar Respublikasına hədsiz məhəbbətimi bir daha bildirmək istəyirəm. Bilin ki, mən sizə həmişə sadiq olmuşam, bundan sonra da sadiq olacağam. Mən Azərbaycan xalqına həyatım boyu sadiq olmuşam, ömrümün son dəqiqəsinə qədər də sadiq olacağam. Azərbaycan dövlətinin müstəqilliyi yolunda bundan sonra da fədakarcasına çalışmaq mənim həyatımın mənasıdır"***, – deməsi onlarda qələbə, inam əzmini gücləndirdi. Sədərək döyüşlərində bütün Naxçıvan diyarının qeyrətli, igid oğulları mərdliklə vuruşurdular və qalib gəldilər. Dahi rəhbərin gəlişi səngərdəki əsgərə də, evindən didərgin düşən Sədərək camaatına da güc və ümid verirdi. Onun Sədərəkdə döyüş mövqelərindəki oğullarla və "Dəhnə" adlandırılan ərazidə çadırlarda yaşayan sakinlərlə görüşü hələ də yaddaşlardadır, indi də qürurla xatırlanır.





İndi həmin günlərdən bir qərinəyə yaxın vaxt ötür. Bu gün müasir görünüşü ilə düşmənə gözdağı olan Heydərabadda olan hər bir insan həmin çətin vaxtları düşündükcə qürur hissi keçirir. Ötən illər ərzində rayon mərkəzi Heydərabad qəsəbəsində yeni binalar tikilib, abad küçələr salınıb, yaşıllıq zolaqları yaradılıb. İndi qəsəbəyə xüsusi gözəllik və yaraşıq verən həmin obyektləri saymaqla qurtarmaq olmaz: Heydər Parkı, rayon Tarix-Diyarşünaslıq Muzeyi, Şahmat məktəbi, qəsəbə tam orta məktəbi, Yeni Azərbaycan Partiyası Sədərək Rayon Təşkilatının inzibati binası, rayon Məhkəməsi, Prokurorluq, Polis Şöbəsi üçün inzibati binalar və sair... Genişmiqyaslı tikinti-abadlıq və quruculuq işləri bu gün də eyni sürət və keyfiyyətlə davam etdirilməkdədir. Ötən il Heydərabad qəsəbəsində inşa olunan yeni yaşayış binası Ermənistanla sərhəddən cəmi bir kilometr məsafədə yerləşir. Zirzəmi ilə birlikdə 7 mərtəbədən ibarət olan binada 48 mənzil sədərəklilərin istifadəsinə verilib. Bayraq Meydanının, Teleötürücünün istifadəyə verilməsi, yeni su-kanalizasiya sisteminin çəkilişi də dövlət qayğısının daha bir nümunəsidir. Qəsəbədaxili bütün yollara asfalt döşənib, işıqlandırma sistemi quraşdırılıb. Səliqə-sahman və sakitlik isə buranın daimi həyat tərzinə çevrilib. Bütün mənzillərin pəncərəsindən düşmən postlarının göründüyü bu qəsəbədə həyat normal tərzdə davam edir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2010-cu il oktyabrın 5-də muxtar respublikaya səfəri çərçivəsində Sədərək rayonunun Heydərabad qəsəbəsinə gəlib, burada istifadəyə verilən yeni obyektlərin açılış mərasimində iştirak edib. Ölkə başçısı qəsəbə sakinləri qarşısında çıxış edərək deyib: ***"Sizi qəsəbənin açılışı münasibətilə təbrik edirəm. Gözəl evlər, binalar tikilib. Qəsəbə yeni dövrə qədəm qoyur. Bütün işlər ən müasir səviyyədə görülübdür. Çox şadam ki, respublika rəhbərliyi bütün bu işləri qısa müddət ərzində çox böyük keyfiyyətlə gördü. Bu, doğrudan da, böyük hadisədir. Heydərabad qəsəbəsinin Azərbaycan tarixində çox mühüm yeri vardır. Siz düşmənlə üz-üzəsiniz, sərhəddəsiniz və vaxtilə buralar dağıdılmışdı. Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və işğalçı siyasəti bu bölgələri də əhatə etmişdir. Məhz ulu öndər Heydər Əliyevin fəaliyyəti və qətiyyəti, müdrikliyi nəticəsində Naxçıvan özünü qoruya bilmişdir... Əgər o vaxt Heydər Əliyev Naxçıvana gəlməsəydi və burada bütün işləri lazımi səviyyədə görməsəydi, Naxçıvanın aqibəti çox acınacaqlı ola bilərdi. Biz qədim torpağımızı itirə bilərdik"***.

Yaxın günlərdə qəsəbə sakinləri ilə həmsöhbət olduq. Yadulla Ələkbərov Sədərək döyüşlərinin iştirakçısı, şahididir. O deyir: – Qanlı döyüşlərdə kənd düşmənin ağır silahlardan atdığı mərmilərlə xarabaya dönmüşdü. Sakinlər həm azğınlaşmış düşmənlə, həm aclıqla, həm də soyuq, şaxtalı qışla mübarizə aparsa da, sınmadı, əyilmədi. Çətin idi, amma mübarizədən dönmürdük. Bir posta elə olurdu ki, onlarla igid can atırdı. Sədərək döyüşlərində göstərilən qəhrəmanlıq haqqında nə qədər danışsam, azdır. Bircə onu bilirəm ki, bizim üçün Vətəndən, torpaqdan əziz heç nə yox idi, indi də elədir. Döyüşə gedən oğullar öz ailələrini belə, kənddən çıxarmır, "biz döyüşüb, sizi qoruyacağıq",– deyirdilər. Analarımız, qadınlarımız evlərdə qalıb bizə – səngərə isti çörək, yemək bişirib göndərirdilər. Həmin il qış da, sanki öz "cəsarətini" göstərirdi. Elə soyuq, şaxtalı havalarda isti geyim, yanacaq olmadan döyüşür, düşmənə layiqli cavab verirdik.

Yadulla Ələkbərov onu da deyir ki, Sədərək döyüşlərində bacısının həyat yoldaşını və əmisi nəvələri – kiçikyaşlı Elvini və Maliki itiriblər. Bütün bunlar onların döyüş əzmini itirməyib, şəhidlərimizin olması onların qisas hissini daha da alovlandırıb. Bu xalq, bu millət heç bir zaman düşmənə baş əyməyib, əyməyəcək də. Babalarımızdan bizə yadigar qalan və oğullarımıza ərməğan etdiyimiz hünər və cəsarəti onlar da Vətən müharibəsində dünyaya nümayiş etdirdilər. 30 ildir, düşmən caynağında qalan torpaqlarımızı düşməndən azad etdilər. Vətən müharibəsinə qardaşım və əmimoğlu birlikdə yollanmışdı. Əmimoğlu Niyaməddin Ələkbərov şəhidlik zirvəsinə yüksəldi, qardaşım Oktay Ələkbərov Şuşaya kimi döyüş yolu keçdi, qalib ordunun qalib əsgəri kimi bu gün xidmətini Şuşada davam etdirir. Bu gün dahi rəhbərin adını daşıyan bu qəsəbədə 90-cı illərdə yaşamağa ev qalmamışdı. Evlər düşmənin ağır silahlardan atdığı mərmilərlə, tamamilə dağılmışdı. Dövlətimizin qayğısı ilə həmin xarabaya dönmüş evlərin yerində yeni evlər inşa olundu, sahiblərinə verildi. Bu gün hər bir sakin öz evində çırağını yandırır, əkir-biçir, rahat yaşayır. Baxmayaraq ki, düşmən beş-on metrliyimizdədir, bir an belə, qorxu hissi keçirmirik. Bilirik ki, atılan hər bir güllənin qarşılığı veriləcək.

Qəsəbədə olarkən düşmən postlarının yaxınlığında yerləşən əkin sahələrində torpağı becərən, həyatyanı sahələrində yetişmiş meyvələri toplayan insanlarla da rastlaşır, qəsəbədə həyatın öz axarı ilə davam etdiyini görür, buranın səmimi, qonaq, cəsur qadınları ilə də həmsöhbət oluruq. 1990-cı ilin çətin günlərini yaşamış Səkinə Vəliyeva:

– Həmin ilin soyuq, şaxtalı qış günlərində mənfur ermənilər Sədərəyə hücum etdilər. Topun, tüfəngin səsindən qulaq tutulurdu. Biz o vaxt balalarımızı səngərdə tək qoymadıq, çünki bilirdik ki, səngərdə döyüşən əsgər arxasında xalqın dayandığını bilib daha böyük bir hünərlə duracaq düşmənin qarşısında. Bu gün onların – əsgərlərimizin sayəsində evlərimizdə rahat yatırıq. Hər cür şəraitimiz var. Bütün bunlar üçün dövlət başçımıza, muxtar respublika rəhbərinə borcluyuq. Allah bayrağımızı həmişə yüksəklərdə dalğalandırsın. Xalqının, elinin qədrini bilənlərin də ömrü su kimi uzun olsun.

***Bu gün rayon mərkəzi Heydərabad qəsəbəsi özünəməxsus gözəlliyi ilə düşmənə gözdağı, bizə isə qürur yaşadır. O, adına layiq məğrurluqla dayanıb düşmənin qarşısında. Heydərabadda yaşayan hər kəs, sanki səngərdə bir əsgər kimi həyat sürür. Bəli, onların hər biri əsgərdir səngərdə – öz evində Vətəni qoruyan müsəlləh əsgər. Neçə ki belə ürəyi dağlardan da böyük insanlarımız var, bu Vətən daim yaşayacaq, qürur yerimizə çevrilən yurd yerlərimizin gələcəyi daha da firavan və işıqlı olacaq.***

**✍ Ramiyyə ƏKBƏROVA**

## Taxılçılığın inkişafı əhalinin ərzaq məhsulları ilə etibarlı təminatında mühüm rol oynayır

*Naxçıvan Muxtar Respublikasında əhalinin etibarlı ərzaq təminatı iqtisadi siyasətin başlıca istiqamətlərindən birini təşkil edir. Ərzaq təhlükəsizliyi baxımından strateji əhəmiyyəti olan taxılçılıq kənd təsərrüfatı sektorunun aparıcı sahələrindən biridir. Belə ki, bitkiçilik sahəsinə aid olan taxılçılıq təsərrüfatı bütün kənd təsərrüfatının əsasını təşkil edərək əhalinin çörək və çörək məmulatlarına olan tələbatını ödəməklə yanaşı, həm də heyvandarlıqda qüvvəli və qaba yem ehtiyatının əldə edilməsində mühüm rol oynayır. Bu baxımdan taxılçılıq təsərrüfatının inkişafına diqqətin artırılması mühüm məsələ kimi qarşıya qoyulmuşdur.*





Muxtar respublikada taxıl məhsullarına olan tələbatın daxili imkanlar hesabına ödənilməsi məqsədilə kompleks tədbirlərin həyata keçirilməsi cari ilin ötən dövrü ərzində də davam etdirilib. Torpağın şumlanmasından başlayaraq yetişdirilən məhsulun daşınmasına qədər bütün proseslər nəzarətdə saxlanılıb. Yeni texnikaların gətirilməsi, meliorasiya və irriqasiya tədbirlərinin həyata keçirilməsi, məhsuldarlığın yüksəldilməsi üçün aqrotexniki tədbirlərin aparılması hesabına hər il əvvəlki illə müqayisədə daha çox taxıl məhsulu əldə olunur.

Həyata keçirilən ardıcıl tədbirlərin nəticəsidir ki, 2021-ci ilin məhsulu üçün 32 min 721 hektar sahədə taxıl əkilib. Taxıl zəmilərinin 20 min 930 hektarında buğda, 11 min 791 hektarında isə arpa əkilib.

Aqrar sektorda həyata keçirilən dövlət dəstəyi tədbirləri öz uğurlu nəticəsini verir, bu isə kənd təsərrüfatı məhsullarının istehsalının və ixracının artmasına, özünütəminetmə səviyyəsinin yüksəlməsinə səbəb olur. Məhz bu baxımdan taxılın strateji məhsul kimi mühüm əhəmiyyəti nəzərə alınaraq 2000-ci ildən ötən müddət ərzində taxılçılıqla məşğul olan 124 sahibkarlıq subyektinə 794 min 400 manat məbləğində dövlət maliyyə dəstəyi göstərilib.

Strateji əhəmiyyətli məhsulun tədarük olunub keyfiyyətlə saxlanılması istiqamətində həyata keçirilən tədbirlər diqqət mərkəzindədir. Muxtar respublikada fəaliyyət göstərən taxıl emalı müəssisələrinə tədarük başlayandan 10 sentyabr 2021-ci il tarixədək 382 ton taxıl tədarük edilib. Qeyd edək ki, "Gəmiqaya Taxıl Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin taxıl anbarında yerli tədarükdən əlavə 8632,4 ton taxıl ehtiyatı mövcuddur.

Un və un məhsullarının keyfiyyəti də daim nəzarətdə saxlanılır və cari ilin ötən dövrü ərzində 44 halda çörək, 335 halda yuxa, 143 halda unlu qənnadı məhsulları, 67 halda un, 12 halda buğda, 17 halda kəpək nümunəsi götürülərək laboratoriya müayinələrindən keçirilib. Bu cür məqsədyönlü tədbirlərin həyata keçirilməsi nəticəsində həm taxıl tədarük edilərək ehtiyat yaradılır, həm də un istehsal olunaraq muxtar respublika əhalisinin una və çörəyə tələbatı ödənilir.

Məhsulun vaxtında toplanılması və münasib qiymətə satılması da diqqət mərkəzində saxlanılır. 2022-ci il üçün muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalçılarından İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "Araz-3" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Gəmiqaya Taxıl Məhsulları" MMC və digər taxıl qəbulu müəssisələri tərəfindən tələbatdan artıq istehsal olunmuş buğda, arpa və qarğıdalı məhsullarının satınalma qiymətləri bəlli olub. Belə ki, anbarlara qəbul olunan 1 kiloqram arpa 40 qəpikdən, dən üçün qarğıdalı 35 qəpikdən, yağ üçün qarğıdalı 42 qəpikdən, buğda 50 qəpikdən təhvil götürüləcək və dəyəri də yerində ödəniləcək.

Qeyd edək ki, əhalinin taxıl və çörək məhsullarına olan tələbatının daxili istehsalla ödənilməsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vacib məsələ kimi qarşıya qoyulub. Ona görə də taxılçılığın inkişafı istiqamətində aparılan işlər bundan sonra da davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Sədərək rayonunda "Şərq qapısı" qəzetinin 100 illik yubileyi qeyd olunub



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə təsdiq olunan Tədbirlər Planına əsasən dünən Sədərək rayonunda mətbu orqanın yubiley tədbiri keçirilib.*

Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının müavini Mahirə Adnayeva açaraq "Şərq qapısı" qəzetinin mətbuat tariximizdəki əhəmiyyətindən, muxtar respublikanın sosial-iqtisadi inkişafının, ictimai-siyasi həyatının tarixiləşdirilməsindəki rolundan, strateji əhəmiyyətli rayon kimi Sədərəyin sosial-iqtisadi inkişafına göstərilən dövlət qayğısının mətbuatdakı inikasından danışıb.

"Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova 31 yaşlı rayonun illər öncəki qəhrəmanlığından bəhs edərək bildirib ki, Tarixi Zəfərin qazanılmasında naxçıvanlılar, eləcə də Sədərək rayonundan olan igidlər də qəhrəmanlıq göstərib, şəhadətə yüksəliblər.

100 yaşlı mətbu orqanın keçdiyi tarixi inkişaf yoluna nəzər salıb, milli mətbuatımıza göstərilən diqqət və qayğıdan danışan baş redaktor onu da diqqətə çatdırıb ki, qəzet keçmişdə olduğu kimi, bu gün də muxtar respublikanın sosial-iqtisadi və mədəni inkişafına öz töhfəsini verir. 1921-ci ilin noyabrında Gənclər İttifaqının orqanı olan "Cavanlar həyatı" ilə təməli qoyulan "Şərq qapısı" qəzeti müxtəlif tarixi mərhələlərdə ictimai-siyasi, ədəbi-mədəni proseslərin işıqlandırılmasında, millilik və maarifçilik ideyalarının təbliğində mühüm rol oynamışdır.

Vurğulanıb ki, ötən əsrin 70-80-ci illərində "Şərq qapısı" qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilmişdir. Qəzet muxtar respublikamızda fəaliyyət göstərən ümummilli lider Heydər Əliyevin müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi yolunda həyata keçirdiyi tədbirlərin fəal təbliğatçısı olmuşdur. 1990-1993-cü illərdə ulu öndərimiz qəzetin fəaliyyəti ilə yaxından maraqlanmış, çətin şəraitdə belə, onun nəşr olunmasını təmin etmişdir. Müstəqillik illərində Naxçıvanda aparılan uğurlu media siyasəti nəticəsində "Şərq qapısı"nın əsl inkişaf mərhələsini yaşadığını vurğulayan baş redaktor qeyd edib ki, muxtar respublikada jurnalistikanın inkişafı istiqamətində görülən çoxsaylı tədbirlər "Şərq qapısı" qəzetində peşəkarlıq fəaliyyətinin yüksəldilməsinə əhəmiyyətli təsir göstərmişdir. Bildirilib ki, "Şərq qapısı" qəzeti daim Ali Məclis Sədrinin diqqət və qayğısı ilə əhatə olunmuşdur, bu mətbu orqanın 75, 80, 85, 90 illik yubileyləri yüksək səviyyədə qeyd edilmişdir. "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamın imzalanması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı olmaqla, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir. Baş redaktor göstərilən yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.



Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxışında bildirib ki, müstəqillik illərində muxtar respublikada digər sahələr kimi, mətbuat da yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamından sonra bu istiqamətdə mühüm tədbirlər həyata keçirilmişdir. Milli mətbuatımızın 135 illik yubileyində – 2010-cu il iyulun 22-də "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılmışdır. Muxtar respublikada mətbuatın inkişafı ilə paralel olaraq yüksək nəşriyyat-poliqrafiya mədəniyyəti də formalaşmışdır. 2018-ci ildə dövlət teleradiosuna, "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manatdan artıq olan müxtəlif avadanlıqlar alınmış, sonrakı dövrdə də teleradio və qəzetlərin maddi-texniki bazaları gücləndirilmişdir.

Rövşən Hüseynov qeyd edib ki, bu gün "Şərq qapısı" qəzeti redaksiyasında istər jurnalist peşəkarlığı, istərsə poliqrafik keyfiyyət baxımından müasir tələblərə cavab verəcək qəzetin nəşri üçün müasir iş şəraiti yaradılmışdır. 2012-ci ildən etibarən *www.serqqapisi.az* saytı vasitəsilə qəzet dünyanın Naxçıvanla bağlı informasiya tələbatını ödəməyə başlamış, qəzetin elektron arxiv bazası yaradılmışdır. Sayt 2019-cu ildə yenilənmişdir.

Tədbirdə "Şərq qapısı" qəzetinin Humanitar siyasət şöbəsinin müdiri Ramiyyə Əkbərova, Sədərək rayon Yeni Azərbaycan Partiyasının Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Vüsalə Əliyeva, YAP Gənclər Təşkilatının sədri Polad Rzazadə, "Oğuz yurdu" qəzetinin redaktoru Gülnarə Hüseynova, qəzetin gənc əməkdaşı Fərhad Rzayev çıxış edərək "Şərq qapısı" qəzetinin fəaliyyətindən, milli mətbuatımızın inkişafındakı rolundan ətraflı söhbət açıblar. Tədbir ərzində qəzetin tarixi inkişaf yolu və iş prinsipini əks etdirən videoslayd nümayiş olunub.

Tədbirin sonunda "Oğuz yurdu" qəzetinin redaktoru Gülnarə Hüseynovaya "Şərq qapısı" qəzetinin fəxri fərmanı və hədiyyələr, qəzetlə yaxından əməkdaşlıq edən digər qələm sahiblərinə hədiyyələr təqdim olunub.

Tədbirdə Sədərək Rayon İcra Hakimiyyətinin orqanı olan "Oğuz yurdu" qəzeti ilə fəal əməkdaşlıq edən "Şərq qapısı" qəzetinin Humanitar siyasət şöbəsinin müdiri Ramiyyə Əkbərovaya İcra Hakimiyyəti tərəfindən təşəkkürnamə təqdim edilib.

**Ramiyyə ƏKBƏROVA**

## Kənd təsərrüfatında maarifləndirmə tədbirləri davam etdirilir

Avqust ayı ərzində Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları tərəfindən muxtar respublikada əkilmiş kartof məhsulunun yığımının qısa müddətdə başa çatdırılması, yığılmış məhsulların Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin və fəaliyyət göstərən sahibkarların soyuducu anbarlarına təhvil verilməsi, qəbul edilmiş Dövlət proqramlarının müvafiq bəndlərinin icrası ilə əlaqədar maarifləndirmə işləri aparılıb. Biçindən sonra təkrar əkin sahələrində aqrotexniki qulluğun düzgün və vaxtında aparılması, payızlıq taxıl əkinlərinə hazırlıqla əlaqədar növbəli əkin sisteminə əməl etməklə əkin sahələrinin seçilməsi, keyfiyyətli şumun qaldırılması, toxumun dərmanlanmasının əhəmiyyəti, meyvə və üzüm bağlarında məhsul yığımından sonra aparılacaq aqrotexniki tədbirlərlə bağlı torpaq mülkiyyətçiləri və ailə təsərrüfatı sahiblərinin iştirakı ilə tarla-seminar müşavirələri keçirilmişdir. Payızlıq şumun qaldırılmasında iştirak edəcək texnikaların texniki vəziyyəti nəzarətdə saxlanılıb. Eyni zamanda texnika və torpaq mülkiyyətçiləri ilə müasir texnologiyalar tətbiq edilməklə əkinlərin keçirilməsinin üstünlükləri, səmərəliliyi və məhsuldarlığa təsiri barədə ətraflı söhbətlər aparılıb.

Ay ərzində nazirliyə meyvə bağları və üzümlüklərdə zərərverici və xəstəliklərə qarşı mübarizə ilə bağlı 16, təkrar əkinlərin əlverişli üsullarla aparılması ilə bağlı 19 vətəndaş müraciət edib, mütəxəssislər tərəfindən vətəndaşlara lazımi tövsiyələr verilib, köməklik göstərilib.

Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyinin Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri şöbəsinin əməkdaşları Babək rayonunun Şıxmahmud, Aşağı Uzunoba və Yuxarı Uzunoba, Vayxır kəndlərindən və Cəhri qəsəbəsindən götürülmüş torpaq nümunələrini analiz edərək tərkibindəki qida maddələrinin miqdarını müəyyənləşdirib, torpaq kartoqramlarının hazırlanması üzrə işlər davam etdirilib. Birliyin Bitki sortlarının seleksiyası, sınağı, mühafizəsi və toxumçuluq şöbəsi tərəfindən seleksiya məqsədilə əkilmiş 56 payızlıq buğda və sort sınağı üçün əkilmiş 32 payızlıq buğda və arpa sortları biçilib, dərzlər şəklində götürülüb, döyücü aparatdan keçirilərək nəticələri araşdırılıb. Bununla yanaşı, Heyvandarlıq və yem bitkiləri şöbəsinin əməkdaşları tərəfindən sahibkar Heydərov Azər Əli oğluna məxsus 100 baş Balbas cinsli qoyunların üzərində elmi-tədqiqat işləri davam etdirilib. Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin götürülmüş toxum nümunələri analiz olunaraq nəticələri haqqında təsərrüfat sahiblərinə məlumat verilib. İdarəyə müxtəlif əkin sahələrində xəstəlik və zərərvericilərin aşkarlanması məqsədilə müraciət etmiş 68 ailə təsərrüfatçısının sahələrinə baxılıb, onlara məsləhət və tövsiyələr verilib.

Mal-qaranın cins tərkibinin yaxşılaşdırılması üçün süni mayalanmanın tətbiqinin əhəmiyyəti, payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə bağlı, bal süzümünün mütəşəkkil təşkili, arı ailələrinin qışlamaya hazırlanması, xəstəliklərə qarşı profilaktik tədbirlərin aparılması, ev quşlarının gigiyenası, onların yemlənməsi, saxlanması və inkubasiya qaydaları, xəstəliklərdən qorunması məqsədilə fərdi qaydada maarifləndirici görüşlər keçirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

***Ölkəmizdə həyata keçirilən islahatlar nəticəsində sığorta-pensiya sistemində davamlı inkişafa nail olunmuş, sistemin beynəlxalq standartlara uyğun formalaşdırılması təmin edilmiş, həmçinin sosial sığorta prinsiplərinin daha da gücləndirilməsi və bu zəmində vətəndaşların pensiya təminatının daha da təkmilləşdirilməsi xüsusi diqqət mərkəzində saxlanılmışdır. Sığorta-pensiya sisteminin maliyyə təminatının əsasını isə məcburi dövlət sosial sığorta haqları təşkil edir.***

## Məcburi dövlət sosial sığortasına cəlb olunmayan şəxslərin sosial sığorta ödəmələri almaq hüququ yoxdur

Məcburi dövlət sosial sığortası "Sosial sığorta haqqında" Azərbaycan Respublikası Qanununa görə, bütün əmək müqaviləsi üzrə işləyənlər barəsində həyata keçirilən sosial təminat formasıdır. Belə ki, işəgötürən tərəfindən əmək müqaviləsi ilə işə qəbul olunan hər bir işçi məcburi dövlət sosial sığortası ilə əhatə olunmaqla, sığorta iştirakçısına çevrilir. Barəsində məcburi dövlət sosial sığortası həyata keçirilən əmək müqaviləsi üzrə çalışan işçilər sığortaolunan hesab olunur. Məcburi dövlət sosial sığortahaqqı əmək ödənişinə nisbətdə faizlə müəyyən edilir, sığortaedənin və sığortaolunanın vəsaiti hesabına ödənilir. Məcburi dövlət sosial sığortahaqqına cəlb olunan sığortaolunanlar Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu tərəfindən dövlət sosial sığorta sistemində uçota alınır və ödənilən məcburi dövlət sosial sığorta haqları həmin vətəndaşların fərdi şəxsi hesablarına işlənilir. Fərdi şəxsi hesablarda olan pensiya kapitalının miqdarı və ödəmə müddəti vətəndaşın sığorta stajını və pensiyasının məbləğini müəyyənləşdirməklə yanaşı, ona sosial sığorta ödəmələrindən yararlanmaq hüququ yaratmış olur. Yəni sosial sığorta hadisəsi baş verdikdə sığortaolunanlar itirilmiş əməkhaqlarını, gəlirlərini və ya əlavə xərclərini kompensasiya etmək, həmçinin itirilməsini qarşısını almaq məqsədilə sığorta ödəməsi almaq hüququ əldə edirlər. Belə ki, fondda qeydiyyatda olan işləyən sığortaolunanlar pensiya yaşına çatdıqda, sağlamlıq imkanlardan məhrum olduqda, ailə başçısını itirdikdə, əmək qabiliyyətini müvəqqəti itirdikdə, hamiləlik və doğum zamanı, uşaq anadan olduqda və sair bu kimi sosial sığorta hadisələri baş verdikdə fond tərəfindən əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuma görə, uşağın anadan olmasına görə müavinət, ən əsası pensiya yaşına çatdıqda əmək pensiyası almaq hüququ əldə etmiş olur.

Hazırda fondda qeydiyyatda olan sığortaolunanların pensiyaları "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə, məcburi dövlət sosial sığortası üzrə ödəmələr isə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 sentyabr 1998-ci il tarixli 189 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə"yə uyğun müəyyən edilir.

Qeyd etmək lazımdır ki, xeyrinə məcburi dövlət sosial sığorta fəaliyyəti həyata keçirilməyən şəxslərin sosial sığorta ödəmələrini almaq hüququ yoxdur. Yalnız məcburi dövlət sosial sığortasına cəlb olunan şəxslər sosial sığorta ödəmələrini ala bilərlər. Bunu nəzərə alaraq hər bir vətəndaş yaşlı dövrünün maddi təminatının məsuliyyətini əmək fəaliyyəti göstərdiyi vaxtdan düşünməli, harada çalışmasından asılı olmayaraq, işləməyə başlayarkən, ilk növbədə, əmək müqaviləsini imzalamalı, aldığı əməkhaqqının tam məbləğdə əməkhaqqı cədvəlində göstərilməsinə çalışmalı, işlədiyi dövrlər üçün işəgötürən tərəfindən məcburi dövlət sosial sığorta haqlarının tam miqdarda ödənilməsinə şəxsən maraqlı olmalıdır. Vətəndaşların bu prosesdə fəal iştirakı gələcəkdə onların sosial müdafiə hüquqlarının tam təmin olunması ilə nəticələnəcəkdir. Ona görə də təminatlı gələcəyimiz üçün sığorta haqlarını vaxtında ödəmək olduqca vacibdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Naxçıvan gömrükçüləri 133,4 kiloqram narkotik vasitə aşkarlayıb

Naxçıvan gömrükçüləri tərəfindən iki fakt üzrə narkotik qaçaqmalçılığı cəhdlərinin qarşısı alınıb.

Belə ki, Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Türkiyə Respublikasına gedən, Türkiyə Respublikası vətəndaşının idarə etdiyi 76DH649/76DH114 dövlət nömrə nişanlı "Mercedes-Benz" markalı nəqliyyat vasitəsinə Şahtaxtı dövlət sərhədindən buraxılış məntəqəsində xidməti itin tətbiqi ilə gömrük baxışı həyata keçirilib. Xidməti itin reaksiyası nəticəsində 26 kisədə, ümumi çəkisi 19230 kiloqram olan qara rəngli süngər (pemza) daşı yükünün içində 68 kiloqram 390 qram narkotik vasitə – tiryək aşkar edilib.



Həmin nəqliyyat vasitəsinin ardınca Naxçıvan Muxtar Respublikası ərazisindən tranzit keçməklə Türkiyə Respublikasına getmək üçün giriş edən, hərəkət marşrutu, yükü, idxalatçı və ixracatçının rekvizitləri eyni olan, Türkiyə Respublikası vətəndaşının idarə etdiyi 76DF619/76DH576 dövlət nömrə nişanlı "Man" markalı nəqliyyat vasitəsinə Şahtaxtı dövlət sərhədindən buraxılış məntəqəsində gömrük baxışı həyata keçirilən zaman isə 26 kisədə, ümumi çəkisi 19790 kiloqram olan qara rəngli süngər daşlarının içindən 65 kiloqram 020 qram narkotik vasitə – tiryək aşkarlanıb.

Hər iki fakt üzrə oxşar gizlətmə üsulundan istifadə edilib. Belə ki, ümumi çəkisi 133,4 kiloqram olan narkotik vasitə qarışdırıldığı süngər daşları ilə eyni formaya salınmaqla aşkarlanması çətinləşdirilmiş halda olub.

Qeyd olunan faktlarla bağlı Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin İstintaq bölməsi tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 206.2-ci maddəsi ilə (qaçaqmalçılıq yolu ilə narkotik vasitələrin gömrük nəzarətindən kənar və ya ondan gizli keçirilməsi) cinayət işi başlanılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

***Sentyabrın 18-də Azərbaycanın dahi bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim, Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi Üzeyir Hacıbəylinin anadan olmasının 136 illiyi tamam olur. Dahi bəstəkarın dünyaya göz açdığı həmin gün Azərbaycanda “Milli Musiqi Günü” kimi qeyd edilir.***

# Dahi Üzeyir bəylə dünya şöhrəti qazanan milli musiqimiz inkişaf yolundadır

Üzeyir Hacıbəyli 1885-ci il sentyabrın 18-də Şuşa qəzasına bağlı Ağcabədi kəndində anadan olmuş, ilk təhsilini Şuşadakı ikisinifli rus-türk məktəbində almışdır. Gələcəyin dahi bəstəkarının musiqi tərbiyəsinə müstəsna təsir göstərən amillərdən biri Şuşanın zəngin musiqi-ifaçılıq ənənələri olmuşdur.





Bədii yaradıcılığa publisistika ilə başlayan Üzeyir bəy “Kaspi”, “Həyat”, “İrşad”, “Tərəqqi”, “Həqiqət”, “İqbal”, “Yeni İqbal” qəzetlərində və “Molla Nəsrəddin” jurnalında “Ordan-burdan”, “O yan-bu yan” və sair başlıqlar altında “Ü”, “Filankəs”, “Behmankəs” kimi gizli imzalarla dövrün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirir.

Üzeyir Hacıbəyli “Leyli və Məcnun” operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsasını qoyur. Qeyd edək ki, operanın librettosunu o, Füzulinin eyniadlı poeması əsasında yazmışdır.

Xalq dastanları, rəvayətlər və Firdovsinin “Şahnamə” əsərinin motivləri əsasında 1909-1915-ci illərdə bir-birinin ardınca “Şeyx Sənan” (1909), “Rüstəm və Söhrab” (1910), “Şah Abbas və Xurşud banu” (1912), “Əsli və Kərəm” (1912), “Harun və Leyla” (1915) muğam operalarının librettosunu da Üzeyir bəy özü yazmışdır. O, “Leyli və Məcnun”dakı üslub xüsusiyyətlərini və estetik sənət prinsiplərini sonrakı operalarında da davam etdirərək xalq dastanı əsasında bəstələdiyi “Əsli və Kərəm” operasında muğamla bərabər aşıq musiqisindən də istifadə etmişdir.

Üzeyir Hacıbəyli Azərbaycanda musiqili komediya janrının da yaradıcısıdır. Bəstəkarın “Ər və arvad” (1909), “O olmasın, bu olsun” (1910,), “Arşın mal alan” (1913) musiqili komediyalarında inqilabdan əvvəlki Azərbaycan məişəti, xalq adət və ənənələri öz əksini tapmışdır. Gənc musiqiçinin “Arşın mal alan” musiqili komediyası ingilis, alman, çin, ərəb, fars, polyak, ukrayna, belarus, gürcü və sair dillərə tərcümə olunmuşdur.

Üzeyir bəy 1921-ci ildə Bakıda azərbaycanlı tələbələr üçün ilk musiqi məktəbini – Azərbaycan Dövlət Türk Musiqi Məktəbini təşkil etmişdir.

1926-cı ildən Azərbaycan Dövlət Konservatoriyasında fəaliyyət göstərən Hacıbəyov burada nəzəriyyə, harmoniya, Azərbaycan musiqisinin əsasları fənlərindən dərs deyərək, həm də konservatoriya yanında ilk çoxsəsli Azərbaycan xor kollektivini yaratmışdır. O, 1927-ci ildə Azərbaycanın böyük bəstəkarı Müslüm Maqomayevlə birgə ilk “Azərbaycan türk el nəğmələri” məcmuəsini nəşr etdirmiş, 1931-ci ildə isə Azərbaycan Radio Komitəsi yanında ilk notlu xalq çalğı alətləri orkestrini yaratmışdır.

1937-ci il aprelin 30-da Azərbaycan Opera və Balet Teatrında ilk dəfə tamaşaya qoyulan “Koroğlu” operası (librettosu H.İsmayılov və M.S.Ordubadinindir) Üzeyir bəyin yaradıcılığının zirvəsini təşkil edir. Azərbaycan opera sənətinin incilərindən sayılan bu operada müəllif ilk dəfə olaraq klassik opera formasına riayət edərək bitkin ariyalar, kütləvi xor səhnələri, müxtəlif ansambllar, balet nömrələri, reçitativlər yaratmış, simfonik orkestrin tərkibinə Azərbaycan xalq musiqi alətlərini daxil edərək orkestrin rəngarəng səslənməsinə nail olmuşdur. Dahi bəstəkar Azərbaycan Xalq Cümhuriyyəti dövründə qəbul olunmuş və Azərbaycan ikinci dəfə müstəqilliyini qazandıqdan sonra yenidən rəsmi status verilən Azərbaycan Dövlət Himninin müəllifidir. Bəstəkarın “Sənsiz”, “Sevgili canan” romansları, “Çırpınırdı Qara dəniz” mahnısı, “Aşıqsayağı” kamera-instrumental əsəri, “Qaytağı” xoreoqrafik miniatürü və yüzlərlə digər əsərləri bu gün də musiqisevərlər tərəfindən sevə-sevə dinlənilir.

Üzeyir bəy dövrünün ən yüksək mükafatlarına və fəxri adlarına, o cümlədən SSRİ Xalq artisti adına layiq görülmüşdür. 1948-ci ildə vəfat edən görkəmli bəstəkarın xatirəsi əbədiləşdirilmiş, Bakı Musiqi Akademiyası, Azərbaycan Bəstəkarlar İttifaqının möhtəşəm salonu, Azərbaycan Dövlət Simfonik Orkestri, mərkəzi küçələrimizdən biri Üzeyir Hacıbəylinin adını daşıyır. Bakıda memorial ev-muzeyi fəaliyyət göstərir. Bakı Musiqi Akademiyasının qarşısında onun heykəli qoyulmuşdur.

Dahi bəstəkarın anadan olmasının 100 illik yubileyi böyük təntənə ilə keçirilib. YUNESKO-nun görkəmli şəxsiyyətlərin ildönümü və 1985-ci ilin mühüm hadisələri təqviminə əsasən Üzeyir bəyin yubileyi beynəlxalq miqyasda da qeyd olunmuşdur. 1995-ci ildə isə ulu öndər Heydər Əliyevin fərmanı ilə dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması qərara alınıb. Hər ilin bu günü müxtəlif tədbirlərlə qeyd edilir.

Bu il ölkəmizdə Milli Musiqi Günü daha fərqli ab-havada həyata keçirilir. Çünki dahi bəstəkarın doğulduğu torpaq artıq düşməndən azad olunmuşdur. Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu Qarabağın incisi sayılan, dahi Üzeyir bəyin ata-baba yurdu olan Şuşanı düşməndən təmizlədi, bu torpağa göylər gözəli olan Azərbaycan Bayrağını yenidən sancdı. Azərbaycan musiqisinin, sənət beşiyinin məbədi olan Şuşa bu gün yenidən qurulur, ikinci ömrünü yaşayır. Şuşa əbədi olaraq bizimdir və indi ədəbi tədbirlərə uğurla ev sahibliyi edir. Bu yaxınlarda cənab Prezidentin iştirakı ilə Şuşada “Xarıbülbül” musiqi festivalı, Vaqif Poeziya Günlərinin keçirilməsi, Bülbülün ev-muzeyinin yenidənqurmadan sonra istifadəyə verilməsi, dahi Üzeyir bəyin ev-muzeyinin layihəsi ilə tanış olması, büstünü açması bir daha onu göstərir ki, cənab İlham Əliyev Qarabağ torpağına mədəniyyətimizi, musiqimizi, incəsənətimizi, ədəbiyyatımızı, tariximizi qaytarır. Üzeyir bəyin ruhu şaddır, çünki Şuşa torpağı öz övladlarına, doğmalarına qucaq açıb. Bu il sentyabrın 18-dən 24-dək Azərbaycanın mədəniyyət paytaxtı olan Şuşada Üzeyir Hacıbəyli Beynəlxalq Musiqi Festivalının keçirilməsi nəzərdə tutulub. Bu bir daha Şuşaya əbədi qayıdışdan, Qarabağın dirçəlişindən xəbər verir.

Bu məqamda qeyd etməliyik ki, milli mədəniyyətin beşiklərindən olan muxtar respublikamızda da musiqi sənətinin yaşadılması, təbliği və qorunması istiqamətində mühüm işlər görülür. Min illərlə tarixə malik olan qədim Naxçıvan torpağı ilk sivilizasiyanın beşiyi olduğu kimi, dünya mədəniyyətinin də ilkin məskəni sayılır. Naxçıvan ölkəmizə Azərbaycan musiqi mədəniyyətinin inkişafında böyük əməyi olan musiqiçilər yetirib, bəxş edib. Bu qədim yurd yerində muğam üçlüklərinin fəaliyyəti geniş şöhrət tapıb, mahnı ifaçılığı fəal olub. Naxçıvanı vəsf edən onlarca musiqi əsərləri zamanın sınağından keçərək bu gün də öz təravətini qorumaqda, ifa olunmaqdadır. İllərdir ki, qədim diyarımızda dəyərli milli sərvətimiz qorunur və yeni nəsillərə təbliğ edilir. Naxçıvanda tar, kaman, nağara, ney, balaban, saz və digər milli musiqi alətləri ilə yanaşı, tulum, yan tütəyi kimi az yayılmış musiqi alətlərindən də istifadə olunur və yaşadılır. Naxçıvan torpağının yetirmələri olan, dahi Üzeyir bəy məktəbinə mənsub bir sıra bəstəkar və müğənnilərin Azərbaycan musiqi mədəniyyətinin inkişafında öz sözü və öz yeri vardır.



1978-ci ilin sentyabr ayında Naxçıvanda Azərbaycan Bəstəkarlar İttifaqının Naxçıvan Təşkilatı fəaliyyətə başlayıb və o gündən etibarən bu təşkilat muxtar respublikanın musiqi mədəniyyətinin zənginləşməsi yolunda böyük səy göstərib və bir sıra nailiyyətlərə imza atmaqdadır.

Naxçıvan musiqi mədəniyyətindən söz düşəndə öncə qədim rəqs nümunələrindən sayılan “Yallı”lar diqqəti cəlb edir. 1937-ci ildə böyük bəstəkar Üzeyir Hacıbəylinin keçmiş SSRİ Ali Sovetinə Şərur rayonunun indiki Cəlilkəndindən deputatlığa namizəd kimi seçiciləri ilə görüşə gəlməsi zamanı bəstəkarın şərəfinə klubda bədii özfəaliyyət kollektivinin ifa etdiyi yallı və rəqslər Üzeyir bəyi valeh edir. Bir ay sonra bəstəkarın təşəbbüsü ilə Şərur yallısı Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirak edərək böyük uğur qazanır.

Naxçıvan Muxtar Respublikasında milli musiqiyə göstərilən qayğı bu sahənin müxtəlif istiqamətləri üzrə inkişafı ilə nəticələnməkdədir. Belə ki, Naxçıvan bəstəkarlarının yaradıcılıq imkanları genişləndirilmiş, muxtar respublikada milli musiqimizin təbliği istiqamətində də mühüm tədbirlər görülməkdədir. Ötən dövrdə Naxçıvan Dövlət Filarmoniyasının xarici ölkələrə qastrol səfərləri təşkil edilmiş, musiqi kollektivləri Rusiya Federasiyasında, Türkmənistanda, Türkiyədə və Polşada uğurla çıxış etmiş, musiqi kollektivlərinin və “Şərur” Xalq Yallı Ansamblının çıxışları maraqla qarşılanmışdır.

Musiqimizin inkişafı istiqamətində görülən tədbirlər uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərini də əhatə etmişdir. Son illər 20-dən çox musiqi məktəbi üçün bina inşa olunaraq və ya yenidən qurularaq istifadəyə verilmişdir. Bu gün muxtar respublikada 26 uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəbi fəaliyyət göstərir. Bu sahədə həyata keçirilən tədbirlər davamlı xarakter almışdır. Son illər Naxçıvan şəhərinin Qaraçuq, Culfa rayonunun Bənəniyar, Şərur rayonunun Ələkli kəndlərində uşaq musiqi məktəbləri üçün yeni binalar istifadəyə verilmişdir. Naxçıvan şəhərindəki 2 nömrəli Uşaq Musiqi Məktəbi, Sədərək Rayon Uşaq Musiqi Məktəbi üçün də yeni bina inşa olunmuş, musiqi təhsilinin nümunəvi təşkilinə hərtərəfli şərait yaradılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə yaradılan Naxçıvan Dövlət Uşaq Filarmoniyasında xalq çalğı alətləri ansamblı, kamera orkestri, mahnı və rəqs ansamblı, xor kollektivi fəaliyyət göstərir. 1998-ci ildə Naxçıvan Dövlət Universitetinin İncəsənət fakültəsinin nəzdində konservatoriyanın açılması isə ali təhsilli musiqiçi kadrların yetişdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamından sonra Naxçıvan Aşıqlar Birliyi yaradılmış, Azərbaycan xalqının tarixini özündə yaşadan xalq musiqisi, yallılar, xalq rəqsləri, toy adətləri təbliğ olunmağa başlanılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” 2015-ci il 27 iyul tarixli Sərəncamı da musiqi tədrisi sahəsində yeni imkanlar açmışdır. Sərəncama əsasən musiqi müəllimliyi, xalq çalğı alətləri ifaçılığı, fortepiano, musiqişünaslıq, dirijorluq və başqa ixtisasların Mədəniyyət Nazirliyinə hamiliyə verilməsi tədrisin müasir səviyyədə qurulmasına imkan yaratmışdır. Bu məqsədlə gənc musiqiçilərin peşəkar bəstəkar və musiqiçilərlə görüşləri, ustad dərsləri təşkil olunur, istedadlı tələbələrin solo konsertləri keçirilir.

*Bu gün Azərbaycan musiqisi dünyanın qəbul etdiyi sənət nümunəsidir. Milli dəyərlərimizin bu əvəzsiz nümunəsi doğma diyarımızda böyük həssaslıqla qorunub yaşadılır və bundan sonra da hərtərəfli dövlət qayğısı ilə əhatə olunan milli musiqimiz daha da inkişaf etdiriləcəkdir.*

**Fətəli AXUNDZADƏ**
***Babək Rayon Mədəniyyət Şöbəsinin müdiri***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Dövlət Universiteti aşağıdakı dekan və kafedra müdiri vəzifələrini tutmaq üçün müsabiqə elan edir*

**Fakültə üzrə dekan vəzifəsini tutmaq üçün**

*1. Fizika-riyaziyyat*

***Kafedra üzrə kafedra müdiri vəzifəsini tutmaq üçün***

*1. Azərbaycan dili və ədəbiyyatı*
*2. Kimya*
*3. Ümumi riyaziyyat*
*4. İnformatika*
*5. Təməl tibb fənləri*
*6. İngilis dili və metodika*
*7. Elektronika və informasiya texnologiyaları*
*8. Rus və Şərq dilləri*
*9. Təsviri incəsənət*
*10. Fəlsəfə və sosial iş*
*11. Əczaçılıq və biokimya*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na əsasən müsabiqədə iştirak etmək üçün sənədlər bu elan qəzetdə dərc olunduğu gündən bir ay müddətində qəbul edilir. Sənədləri rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana göndərmək lazımdır.

***Ünvan: Naxçıvan şəhəri, Universitet şəhərciyi Naxçıvan Dövlət Universiteti Telefon: (036)545-23-66***
***Rektorluq***

## İtmişdir

Şərur rayonunun Oğlanqala kəndində yaşamış Bağırov Nadir Nəsib oğlunun adına verilmiş JN-996^A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayon Oğuzkənddə yaşamış Mahmudova Pakizə Cəbrayıl qızının adına verilmiş JN-141 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Şərur rayonunun Muğancıq-Müslüm kənd sakini Hüseynov Məhərrəm Mikayıl oğlunun adına verilmiş JN-042^A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

* * *

Sadiqov Nicat Valeh oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 782